# Azərbaycanın xarici siyasətinin əsas istiqaməti sülh və əməkdaşlıqdır



***Ermənistanın 30 illik işğalına baxmayaraq, Azərbaycan müharibə səhifəsini çevirmək, münasibətləri normallaşdırmaq və bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması prinsipi əsasında Ermənistanla sülh müqaviləsi imzalamaq istəyindədir. Azərbaycan sülh danışıqları üçün 5 əsas prinsip irəli sürüb və Ermənistan onları qəbul edib. İnanırıq ki, sülh müqaviləsi bölgəni sülh və əməkdaşlıq regionuna çevirə bilər.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı, 27 iyun 2022-ci il**

***Ulu öndər Heydər Əliyev ictimai-siyasi proseslərdəki dinamika haqqında danışarkən demişdi ki, siyasət və diplomatiyanın əsas vəzifələrindən biri zamanın çağırışlarına cavab verməkdən ibarət olduğuna görə, bu fəaliyyətdə hansısa tezisin əbədi olması mümkün deyil. Yəni zaman və xalqın taleyi nəyi tələb edirsə, siyasətçi də öz fəaliyyətini həmin istiqamətdə qurmalıdır.***

Biz dəfələrlə ümummilli liderin həmin arqumentinin təsdiqinə şahidlik etmişik. Bu sətirləri qələmə almaq üçün şahidi olduğumuz faktlardan ikisini xatırlatmaq kifayətdir. **Birinci:** Prezident İlham Əliyev 2003-cü ilin payızından 2020-ci ilin payızına qədər bütün çıxış və nitqlərində deyirdi ki, bizim xarici siyasətimizin əsas istiqaməti və məqsədi ölkəmizin ərazi bütövlüyünün bərpasına nail olmaqdan ibarətdir.

**İkinci:** Prezident İlham Əliyev hələ ötən ilin yanvarından etibarən dəfələrlə xatırladıb ki, bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistanla sülh sazişinin bağlanmasına nail olmaq, regionumuzu sülh, sabitlik və əməkdaşlıq bölgəsinə çevirməkdən ibarətdir. Yəni zaman indi bizdən bunu tələb edir. İnanırıq ki, regionun və dünyanın ən qətiyyətli və iradəli, müstəqil siyasət yeridən liderlərindən olan İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü bərpa etdiyi kimi, sülh sazişinin imzalanmasına və Cənubi Qafqaza sabitlik gətirilməsinə də nail olacaqdır. Bu barədə ətraflı söz açmazdan əvvəl bir faktı yada salmaq istərdik.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycanın xarici siyasətinin əsas istiqaməti sülh və əməkdaşlıqdır



*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan dövləti Ermənistanın son otuz ildə viran qoyduğu şəhər və kəndlərimizi düşmən tapdağından azad edəndən sonra həmin ərazilərdə genişmiqyaslı bərpa-quruculuq və yenidənqurma işlərinə start vermişdir. Yəni biz xarabalıqlar içərisindən yeni kənd və şəhərlərin salınmasına başlamışıq. Çünki İlham Əliyev xalqımızın, xüsusən, işğaldan azad edilmiş ərazilərimizin sakinlərinin daha yaxşı gələcəkdə yaşaması üçün lazım olan addımları atır.

Bizim bu möhtəşəm fəaliyyətimizin fonunda məlum olur ki, Polşanın Katovitse şəhərində Ümumdünya Şəhər Forumunun "Daha yaxşı gələcək naminə şəhərlərimizi dəyişdirək" mövzusunda 11-ci sessiyası keçirilir. Yəni həmin tədbirin qayəsi bizim məqsədimizlə tamamilə üst-üstə düşürdü. Ona görə də iyunun 27-də həmin sessiyada videoformatda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev qeyd etmişdir ki, Azərbaycanın öz ərazilərini Ermənistanın 30 illik işğalından azad etməsi ilə nəticələnən 2020-ci il Vətən müharibəsindən sonra bizim üçün dayanıqlı şəhər inkişafı daha böyük dəyər kəsb edir: "Ermənistan Azərbaycan torpaqlarının 30 illik işğalı zamanı şəhər və kəndləri qəsdən dağıdaraq, hər bir mədəni və dini abidəni talan edərək həmin əraziləri urbisid və kultursidin bariz nümunəsinə çevirib. Bəlkə də İkinci Dünya müharibəsindən sonra şəhərlərin bu miqyasda dağıdılması dünyanın heç bir yerində baş verməyib. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi yer üzündən silinib. Ağdam şəhəri o dərəcədə dağıdılıb ki, əcnəbi mütəxəssislər onu "Qafqazın Xirosiması" adlandırıblar. Füzuli şəhəri işğaldan azad edildikdən sonra Azərbaycan Ordusu orada bayrağımızı dalğalandırmağa bir dənə də olsun tikili tapa bilməyib".

Ancaq bütün bunlara baxmayaraq, rəsmi Bakı daim bəyan edir ki, biz regionda sülhün və əməkdaşlığın bərpası üçün lazım olan bütün addımları atacağıq və atırıq. Dövlət başçımız həmin çıxışında xatırlatmışdır ki, Ermənistanın 30 illik işğalına baxmayaraq, Azərbaycan müharibə səhifəsini çevirmək, münasibətləri normallaşdırmaq və bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması prinsipi əsasında Ermənistanla sülh müqaviləsi imzalamaq istəyindədir: "Azərbaycan sülh danışıqları üçün 5 əsas prinsip irəli sürüb və Ermənistan onları qəbul edib. İnanırıq ki, sülh müqaviləsi bölgəni sülh və əməkdaşlıq regionuna çevirə bilər".

Yeri gəlmişkən, bu il aprelin 29-da ADA Universitetində keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda da Azərbaycan Prezidenti xatırlatmışdı ki, biz sülhə nail olmaq üçün öz tərəfimizdən müsbət meyillərin dəstəklənməsi üçün əlimizdən gələni edirik. Dövlət başçımız dünyanın müxtəlif ölkələrini təmsil edən siyasətçi və diplomatlara xitabən demişdi ki, uzun sürən müharibələrin, işğalların və dağıdıcılığın tarixinə nəzər salsanız görərsiniz ki, Ermənistan–Azərbaycan müharibəsindən sonra düşmənçilik mərhələsindən sülhə doğru keçid çox sürətlidir: "Mən şəxsən bir ildən artıq müddətdir ki, Ermənistanla sülh sazişinin bağlanmasının vacibliyini bəyan edirəm. Nəhayət ki, yalnız bir neçə həftə bundan əvvəl onlar buna razı oldular. Buna qədər sükut hökm sürürdü. Bizim ərazi bütövlüyümüzü şübhə altına alan bəyanatlar verilirdi. Sərhədlərin delimitasiyasına start verilməsini də biz təklif etdik. Bu təklif də bir ildən artıq Ermənistan tərəfindən cavabsız qoyulmuşdur. Nəhayət ki, onlar buna razılıq verdilər və deyə bilərəm ki, çox tezliklə birgə işçi qrupları görüşəcəklər".

Bəli, Azərbaycan sülh tərəfdarıdır. Hətta torpaqlarımız düşmən tapdağı altında olarkən də biz münaqişənin hərb yolu ilə deyil, məhz sülh yolu ilə həllini istəyirdik. Bu, xalqın böyüklüyünün təsdiqi idi ki, əraziləri işğaldan müharibə yolu ilə deyil, sülh danışıqları ilə təmizləməyə çalışırdıq. Ancaq qarşı tərəf heç zaman sağalmayacaq "ermənilik" xəstəliyindən əzab çəkdiyinə görə bu məsələni sülh yolu ilə həll edə bilmədik və nəticədə qaniçənlərdən ibarət olan Ermənistan rəhbərliyi "ağ bayraq" qaldırmağa məcbur edildi.

Bütün bunlardan sonra dünya ictimaiyyəti hər gün eşidir ki, Azərbaycan sülhə can atır. Lakin Prezident İlham Əliyevin dediyi kimi, biz bunu birtərəfli qaydada edə bilmərik. Biz Ermənistan hökumətinin simasında etibar edə biləcəyimiz və davamlı sülhə nail olacağımız tərəfdaş görməliyik. Dövlət başçımız inanır ki, bu, mümkündür, ancaq bunlar Ermənistanda daxili siyasi proseslərlə bağlı olacaqdır: "Bunu anlamaq olar, çünki onların ideoloji təməlləri sarsılıb. Çünki onların bütün ideologiyası işğal və onun legitimləşdirilməsi üzərində qurulmuşdu. Azərbaycanın mədəni irsinin silinməsindən tutmuş Ağdam və Şuşa da daxil olmaqla bütün şəhərlərimizin adlarının dəyişdirilməsinə qədər – bütün səylər de-fakto işğalı de-yure ilhaqın qanuniləşdirilməsinə yönəldilmişdi".

İndi onların birdən-birə sülhə razılaşması çətin məsələdir. Ancaq dünyanın əlaqədar qurumları Ermənistan rəhbərliyinə başa salmalıdır ki, bu gün sülh Qafqazda hamıdan çox Ermənistanın özünə lazımdır.

Fikirlərimizi dövlət başçımızın qarşı tərəfə sülh xatırlatmaları ilə yekunlaşdırırıq : "Bizim bu təklifimiz qalib ölkənin təklifidir, güclü tərəfin təklifidir, müzəffər xalqın təklifidir. Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilərlər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***